

# Qətiyyətli dövlət başçısı, cəsur sərkərdə və mahir diplomat

***Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyev tərəfindən milli maraqlara və bəşəri dəyərlərə söykənən dövlət konsepsiyasının uğurla reallaşdırılması nəticəsində İkinci Qarabağ müharibəsində erməni faşizmi məhv edilərək, tarixi zəfər qazanıldı, nəticədə isə 30 il ərzində işğalda qalan ərazilərimiz geri qaytarıldı. Torpaqlarımız düşmən əsarətində qaldığı müddətdə iqtisadiyyat gücləndirildi, iqtisadi müstəqillik təmin edildi. Çünki əgər Azərbaycan hansısa başqa böyük dövlətlərdən asılı olsaydı, bu şərəfli missiyanın yerinə yetirilməsi zamanı ciddi problemlərlə üzləşərdik.***

Ona görə də Prezident İlham Əliyev dövlət başçısı kimi fəaliyyətinin ilk günlərindən başlayaraq, iqtisadi müstəqilliyə hesablanan bütün lazımi addımları atdı və respublikamız qısa müddət ərzində dünya miqyasında iqtisadi potensial və sabitlik baxımından birinci sıralarda qərarlaşdı. Bu, eyni zamanda, siyasi müstəqilliyimizi şərtləndirdi, bütün tərəfdaşlarla bərabərhüquqlu, qarşılıqlı hörmət, bir-birinin işinə qarışmamaq prinsipləri əsasında münasibətlərin qurulmasında həlledici rol oynadı. Beləliklə, torpaqlarımızın azad edilməsi üçün əsas şərtlərdən biri reallaşdı.

Azərbaycan Prezidenti tərəfindən bu dövrdə ölkədə ordu quruculuğu diqqət mərkəzində saxlanılmaqla hərbi potensial da möhkəmləndirildi, müasir standartlar və yeni yanaşmalar əsasında silahlı qüvvələrin döyüş qabiliyyəti, hərbi hazırlıq səviyyəsi artırıldı, maddi-texniki təchizatı gücləndirildi. Bu isə Azərbaycanın suverenliyinin döyüş meydanında gerçəkləşdirilməsini şərtləndirdi.

Şübhəsiz ki, Vətən müharibəsində Azərbaycanın əldə etdiyi parlaq qələbədə mükəmməl, dərin strateji diplomatiya siyasəti də önəmli rol oynadı. Müasir beynəlxalq münasibətlər sistemində güclü tərəfdaşlıq əlaqələrinin formalaşdırılması respublikamızın haqq-ədalət mübarizəsində xüsusi əhəmiyyət daşıdı. Ölkəmizin 155 dövlətin dəstəyi ilə BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi, Birləşmiş Millətlər Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı və digər mötəbər qurumlarda səmərəli diplomatik fəaliyyəti Azərbaycanın əks-hərbi əməliyyatla torpaqlarımızı azad etməsinə öz müsbət təsirini göstərdi.

***(ardı 7-ci səhifədə)***

# Qətiyyətli dövlət başçısı, cəsur sərkərdə və mahir diplomat

*İkinci Qarabağ müharibəsi tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaq. Bu qələbənin qazanılmasında bütün xalqımız birlik, həmrəylik göstərmişdir. Atılan addımlar bütün bir məqsəd güdürdü ki, qısa müddət ərzində az itkilərlə düşmənə elə sarsıdıcı zərbə vuraq ki, düşmən məcbur olub torpaqlarımızdan çıxsın. Döyüş meydanında qazanılmış qələbələr siyasi müstəvidə də qələbənin qazanılmasını şərtləndirdi. Əgər döyüş meydanında biz bu qələbəni qazanmasaydıq, inanmıram ki, işğalçı qalan torpaqlardan çıxacaqdı. Necə ki, torpaqlarımızı 30 ilə yaxın müxtəlif yollarla işğal altında saxlamağa can atan düşmən bu işğalı əbədi etmək istəyirdi, biz danışıqlar yolu ilə də heç bir nəticə əldə edə bilməzdik. Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı***




(əvvəli 1-ci səhifədə)

Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi ilə bağlı çoxsaylı qərar və qətnamələrin qəbulu ölkəmizə qarşı yönələn münaqişənin həllinə əlverişli şərait yaratdı. Eyni zamanda, Prezident İlham Əliyevin hücum diplomatiyasının tərkib hissəsi kimi uğurlu informasiya mübarizəsi də Ermənistanın məkrli niyyət-məqsədini bütün dünyaya göstərdi: "Biz Qarabağ həqiqətlərini, işğalla bağlı erməni vəhşiliyini dünya ictimaiyyətinə çatdıra bildik. Birinci Qarabağ müharibəsindən sonrakı ilk dövrdə biz buna nail ola bilməmişdik. Ona görə dünyada müharibə ilə bağlı, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı təhrif edilmiş təsəvvür var idi. Biz bunu aradan qaldırdıq. Gecə-gündüz çalışaraq dünya ictimaiyyətini məlumatlandırdıq, aparıcı beynəlxalq təşkilatlarda uğurlu iş apararaq həqiqəti əks etdirən qərar və qətnamələri qəbul etdirdik. Bütün bu işlər bugünkü reallıq üçün hüquqi bazadır. Çünki bu gün biz düşməni torpağımızdan qovandan sonra heç kim bizə irad tuta bilməz. Çünki biz öz torpağımızda uğurlu əməliyyat aparmışıq, biz beynəlxalq hüququ pozmamışıq, müharibə qanunlarını pozmamışıq. Ədalətli müharibə aparmışıq və döyüş meydanında düşməni məğlub etmişik".

Beləliklə, Azərbaycan Vətən müharibəsinin ilk günlərindən etibarən, informasiya mübarizəsini diqqətdə saxladı. Prezident İlham Əliyev dünyanın aparıcı informasiya agentliklərinə, televiziya kanallarına verdiyi çoxsaylı müsahibələrində suallara dəqiq, məntiqli, faktlarla söykənən cavabları ilə Qarabağ müharibəsi haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırdı. Bununla da düşmənin və havadarlarının ölkəmiz haqqında yaydığı qərəzli, saxta məlumatları təkzib etdi, onların bütün avantüra, qarayaxma kampaniyalarının, təzyiq cəhdlərinin qarşısını qətiyyətlə aldı, xalqımızın beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri əsasında haqq savaşı apardığını bildirdi.

İkinci Qarabağ savaşı günlərində dövlətimizin başçısının beynəlxalq ictimaiyyət üçün nəzərdə tutulan ardıcıl çıxışları, Azərbaycan Respublikası Prezident Administrasiyası və Müdafiə Nazirliyinin mətbuat xidmətlərinin, hərbi informasiya mərkəzlərinin məlumatları informasiya müharibəsində boşluğun yaranmasının qarşısını aldı. Belə bir vəziyyət isə təbii ki, düşmənin saxta xəbərlərinin, necə deyərlər, ayaq açıb yeriməsinə imkan vermədi.

Vətən müharibəsində qələbəmizi şərtləndirən amillərdən biri də xalq-iqtidar birliyi oldu. Dövlətimizin başçısı bu gün olduğu kimi, İkinci Qarabağ savaşına qədərki dövrdə də paytaxtda və bölgələrdə vətəndaşlarla keçirdiyi səmimi görüşlər, onların qayğıları ilə yaxından maraqlanması, insanların sosial rifahının yaxşılaşdırılması istiqamətində verdiyi qərarlar ölkəmizdə bu vəhdəti daha da möhkəmləndirdi, xalqın Prezidentinə olan inamını daha da artırdı.

Ermənistanla haqq mübarizəsi aparılan 44 gün ərzində ölkə rəhbərinin xalqa bağlılığı daha da gücləndi. Bu, müharibənin getdiyi müddətdə Prezident İlham Əliyevin xalqla daha sıx təmasında, xalqa müraciətlərində, insanları qələbə xəbərləri ilə sevindirməsində öz ifadəsini tapdı. Dövlətimizin başçısı savaşdan sonra Şuşada hərbçilər qarşısında çıxış edərək, İkinci Qarabağ müharibəsinin şanlı tariximizin parlaq səhifəsi olduğunu, xalqımızın bütün gücünü səfərbər edib bu şanlı missiyanı ləyaqətlə yerinə yetirdiyini vurğuladı. Ölkə Pprezidenti daha sonra işğal dövründə hər bir Azərbaycan vətəndaşının, ordumuzun müqəddəs zəfəri öz işi, öz əməli ilə yaxınlaşdırdığını, gücünü səfərbər edib bir nöqtəyə vuraraq düşməni tarixi torpaqlarımızdan qovduğunu diqqətə çatdırdı: "2003-cü ildə ilk dəfə Prezident vəzifəsinə seçilən zaman Azərbaycan xalqına müraciət edərək demişdim ki, nəyin bahasına olursa-olsun, biz öz tarixi torpaqlarımızı düşmənin əlindən alacağıq. İstər sülh yolu ilə, istər müharibə yolu ilə və belə də oldu. Uzun illər aparılan sülh danışıqları heç bir nəticə vermədi. Nəticə sıfra bərabər oldu. Əksinə, düşmən daha da azğınlaşmış, qudurmuşdu. Əgər işğalın ilk illərində hələ danışıqlarla bağlı Azərbaycan xalqında və məndə hər hansı bir ümidlər var idisə, son vaxtlar bu ümidlər tamamilə aradan qaldırıldı. Ermənistan və onun havadarları bu işğalı əbədi etmək istəyirdilər. Onlar hesab edirdilər ki, əgər bizim torpağımızı 30 ilə yaxın işğal altında saxlaya biliblərsə, bundan sonra da torpaqları əbədi olaraq işğal altında saxlayacaqlar. Amma səhv etdilər. Onlar bilməli idilər ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq. Bilməli idilər ki, biz düşməni torpağımızdan nəyin bahasına olursa-olsun qovacağıq. Buna hazır olmalı idik, xalq olaraq, dövlət olaraq, bütün hazırlıq işləri vaxtlı-vaxtında aparılmalı idi və aparılmışdır".

Beləliklə, Azərbaycan Prezidenti müharibəyə qədər iqtisadi müstəqilliyi təmin etməklə, ordu quruculuğunu gücləndirməklə, beynəlxalq əlaqələri müasir tələblər səviyyəsində qurmaqla, xalq-iqtidar birliyini diqqətdə saxlamaqla davamlı olaraq vurğuladığı bəyanatı – Azərbaycanın heç zaman işğal faktı ilə barışmayacağı və düşməni silah gücünə də olsa, bu torpaqlardan çıxaracağı, ölkəmizin ərazi bütövlüyünün təmin ediləcəyi fikri öz təsdiqini tapdı.

Vətən müharibəsinin ilk günlərindən qələbə arzusu ilə yaşayan xalqımız savaşa səfərbər oldu. Azərbaycanda yaşayan etnik icma rəhbərləri tərəfindən də Ermənistanın təxribatları ilə bağlı bəyanat yayıldı. Həmin bəyanatda deyilirdi: "Biz Ermənistanın növbəti çirkin böhtan kampaniyasını qətiyyətlə pisləyir və bir daha bəyan edirik: İşğalçı və marionet Ermənistan dərk etməlidir ki, Azərbaycanın bütün xalqları Vətənimizin ərazi bütövlüyünün bərpası, torpaqlarımızın düşməndən azad olunması, məcburi köçkünlərimizin öz ata-baba yurdlarına, Azərbaycanın tarixi torpaqlarına qayıtması uğrunda aparılan müqəddəs mübarizədən heç vaxt kənarda qalmamışdır.

Biz etnik və dini mənsubiyyətimizdən asılı olmayaraq, Azərbaycan əsgərlərinin döyüş bölgələrində uğurlarına sevinəndə, şəhidlərimizə göz yaşları tökəndə onların etnik mənsubiyyətini soruşmuruq. Biz ürəkdən inanırıq və əminik ki, tezliklə Azərbaycanın rəşadətli ordusu üçrəngli bayrağımızı Şuşada, Xankəndidə dalğalandıracaq, şəhidlərimizin qisasını alacaq və mənfur düşmən üzərində böyük qələbə sorağı ilə bizi sevindirəcəklər. Azərbaycan əsgərlərin isə hansı xalqa məxsus olmalarının, hansı dildə danışmalarının və hansı dinə tapınmalarının heç bir əhəmiyyəti yoxdur. Çünki Azərbaycan bizim doğma Vətənimiz, Azərbaycan Respublikası bizim də dövlətimizdir. Onun hər qarış torpağı Azərbaycan xalqları üçün müqəddəs və əzizdir".

Bir qərinəyə yaxın dövr ərzində aparılan danışıqlar prosesində düşmən dövlətin reallaşdırmaq istədiyi niyyət gerçəkləşmədi, keçmiş Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsi həyata keçmədi, bu bölgədə yeni erməni dövlətinin yaradılması planı isə tamamilə alt-üst oldu.

Vətən müharibəsində məğlubiyyətə uğrayan Ermənistan üzərinə götürdüyü kapitulyasiyanın tələblərinin ödənilməsi barədə razılığa gəldi, şərtlərə uyğun olaraq, əvvəlcə Ağdam şəhərini və rayonun işğal altında qalan kəndlərini qeyd-şərtsiz azad etdi. Növbəti mərhələdə isə ölkəmizin əzəli və əbədi torpaqları olan Kəlbəcər və Laçın rayonları rəşadətli Azərbaycan Ordusunun tam nəzarətinə keçdi.

Dövlətimizin başçısı 2020-ci il noyabrın 20-də xalqa müraciətində qeyd etdi ki, əgər Silahlı Qüvvələrimiz Ermənistan ordusunu döyüş meydanında məğlub etməsəydi, işğalçı öz xoşu ilə torpaqlarımızdan çıxmayacaqdı: "Bunu deməyə əsas verən bir çox amillər var. İlk növbədə, o bölgələrdə – işğal edilmiş torpaqlarda qurulmuş istehkamlar, oraya böyük vəsait xərclənib. O istehkamlar elə qurulub ki, Azərbaycan Ordusu oradan keçə bilməsin. Amma yenə də səhv etdilər. Bizim gücümüzü düzgün hesablaya bilmədilər. Bilmirdilər ki, bu gün Azərbaycan Ordusu, Azərbaycan vətəndaşı nəyə qadirdir. Bilmirdilər ki, bizi o qələbəyə aparan həm gücümüzdür, texniki təchizatımızdır, həm də mənəvi ruhumuzdur. Bilmirdilər ki, Azərbaycan xalqı bütün bu illər ərzində bir arzu ilə yaşayır ki, öz dədə-baba torpağına qayıtsın. Bütün bu amillər və digər amillər bu qələbəni şərtləndirdi".

Döyüşdə uduzan, məğlub olan Ermənistanın öz müqavimətini dayandırmaqdan, Azərbaycanın şərtlərini qeyd-şərtsiz qəbul etməkdən başqa əlacı qalmadı. Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin birgə imzaladıqları bəyanat da məhz düşmən ölkənin kapitulyasiyasının ifadəsi idi. Müharibədə ağır itkilər verərək, məğlubiyyətin qaçılmazlığını anlayan, dərk edən işğalçı respublikanın rəhbərliyi Prezident İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtlərlə razılaşmağa məcbur oldu.

Onu da qeyd edək ki, kapitulyasiya aktını şərtləndirən Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin arasında əldə edilən məlum razılaşma Azərbaycanın ərazi bütövlüyünün tam bərpa olunması baxımından tarixi əhəmiyyət daşıyırdı, eyni zamanda, bəyanatla Qarabağa heç bir status verilməyəcəyi, Naxçıvanla Azərbaycanın quru əlaqəsinin reallaşacağı, Naxçıvanın blokadadan çıxacağı, habelə qardaş Türkiyənin sülhməramlı prosesdə iştirak edəcəyi bildirilirdi.

Ümumiyyətlə, böyük siyasi, diplomatik səy hesabına əldə edilən bütün bu uğurlar Azərbaycanın tarixi qələbəsi, işğalçı Ermənistanın və dünya erməniliyinin isə ağır məğlubiyyətinin ifadəsi idi.

Beləliklə, Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsi şanlı qələbə ilə sona çatdı, hərbi əməliyyatlar çərçivəsində Azərbaycan Ordusu işğalçı Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın edərək, böyük zəfərə imza atdı.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***